*Azərbaycan gəncliyi yüksək vətənpərvərlik ruhunda tərbiyə edilməli, millətinə və dövlətinə sədaqət hisslərini hər şeydən üstün tutmalıdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 yanvar 2019-cu il № 8 (2325) Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev şəhid ailələri ilə görüşüb

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşüblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.*



- Hörmətli şəhid ailələrinin nümayəndələri.

Mən sizi bu gün görüşə dəvət etmişəm. İlk növbədə, sizə öz dərin hörmətimi ifadə etmək istəyirəm. Sizin yaxınlarınız torpaq uğrunda, Vətən uğrunda həlak olmuş, şəhidlik zirvəsinə yüksəlmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

1990-cı illərin əvvəllərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımız işğal altına, bir milyondan çox soydaşımız qaçqın, məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz minlərlə şəhid verdik, on minlərlə insan yaralandı, əlil oldu. O vaxt Azərbaycanda hakimiyyətsizlik dövrü idi. Bizim məğlubiyyətimizin əsas səbəbi ondan ibarət idi ki, o vaxt Azərbaycanda güclü lider yox idi. Müxtəlif qruplaşmalar hakimiyyət uğrunda mübarizə aparırdılar, bir-birinə qarşı təxribat törədirdilər və Ermənistan bundan istifadə edib torpaqlarımızın bir hissəsini zəbt etmişdir. Tam qətiyyətlə deyə bilərəm, - mən bunu dəfələrlə demişəm, - əgər o vaxt Heydər Əliyev Azərbaycanın rəhbəri olsaydı, torpaqlarımız heç vaxt işğal altına düşməzdi.

1990-cı illərin əvvəllərində AXC-Müsavat cütlüyünün xəyanətkar fəaliyyəti nəticəsində xalqımız böyük faciə ilə üz-üzə qalmışdır. Siz bilirsiniz, bu gün biz çalışırıq ki, bu məsələni həll edək. Ordu quruculuğuna çox böyük diqqət göstərilir. Bizim ordumuz döyüş meydanlarında da öz gücünü göstərmişdir. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Biz bir neçə strateji mövqeyi işğalçılardan azad etmişik və o bölgələrdə, o yüksəkliklərdə Azərbaycan bayrağını qaldırmışıq. Bu gün Lələtəpədə, Ağdərə dağlarında, Naxçıvan dağlarında - hansılar ki, işğal altında idi, bu gün Azərbaycanın dövlət bayrağı dalğalanır.

Eyni zamanda, bildiyiniz kimi, bu məsələni danışıqlar yolu ilə həll etməyə çalışırıq. Hesab edirəm ki, ölkəmizin artan potensialı, hərbi-iqtisadi gücü, dünyadakı mövqeyi bu gün bizim xeyrimizə işləyir və bu gün danışıqlar prosesində ölkəmizin mövqeləri kifayət qədər güclüdür.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir. Ölkəmizin ərazi bütövlüyünün bərpası ən vacib məsələdir. Diplomatik müstəvidə biz maksimum nəticəyə nail ola bilmişik. Bu gün bütün dünya bu münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasını bildirir. Çoxsaylı qətnamələr, qərarlar, ikitərəfli formatda imzalanmış müqavilələr, bəyannamələr ölkəmizin ərazi bütövlüyünə dəstək ifadə edir. Dünyanın aparıcı beynəlxalq təşkilatları - BMT, onun Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar bu münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edir. Yəni, biz bütün vasitələrdən istifadə edirik ki, məsələni həll edək, torpaqlarımızı işğalçılardan azad edək.

Onu da bilməliyik ki, bu gün dünyada güc amili ön plana çıxıb. Biz ordu quruculuğu istiqamətində bu günə qədər böyük işlər görmüşük. Qeyd etdiyim kimi, döyüş meydanlarında da öz gücümüzü göstərmişik. Bütün dünyaya göstərmişik ki, Azərbaycan xalqı və Azərbaycan dövləti bu işğalla heç vaxt barışmayacaq.

Müharibədən əziyyət çəkən vətəndaşlara daim diqqət, qayğı göstərilir. Məcburi köçkünlər üçün son illər ərzində yüzdən çox şəhərcik və qəsəbə tikilmişdir. Təkcə keçən il 5900 məcburi köçkünə mənzillər, fərdi evlər verilmişdir. Bu proses bu il də davam etdiriləcək. Şəhid ailələrinə dövlət tərəfindən dəstək göstərilir. Bu günə qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6 mindən çox şəhid ailəsinə minik avtomobilləri verilmişdir. Yəni, bu, dövlətimizin şəhid ailələrinə olan münasibətinin təzahürüdür. Mən bilmirəm, hansı başqa ölkədə öz vətəndaşlarına, ağır vəziyyətdə yaşayan vətəndaşlara, yaxınlarını itirmiş vətəndaşlara bu qədər diqqət, bu qədər qayğı göstərilsin.

**(Ardı 2-ci səhifədə)**

## Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 35 milyon manat ayrılıb

*Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin alınması məqsədilə ölkə başçısının 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.18.3-cü yarımbəndində göstərilən vəsaitin 35 milyon manatı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılıb.

Sərəncamda əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasının ölkədə həyata keçirilən sosial yönümlü siyasətin əsas istiqamətlərindən biri olduğu qeyd edilir. Bildirilir ki, son illərdə ölkəmizdə əhalinin, xüsusilə Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi, bu qəbildən olan insanların sağlamlıq, reabilitasiya və yaşayış şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilib və bu istiqamətdə işlər uğurla davam etdirilir. Belə ki, 1997-2018-ci illər ərzində dövlət Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə 6500-dən çox mənzil verib.

# Azərbaycan Prezidenti İlham Əliyev şəhid ailələri ilə görüşüb



(Əvvəli 1-ci səhifədə)

Mənim fəaliyyətimdə bu məsələ daim prioritet təşkil edir. Son illər ərzində şəhid ailələri ilə çoxsaylı görüşlərim bunu bir daha sübut edir. Biz sizinlə birlikdə bir çox evlərin açılışlarında iştirak etmişik. Mən şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını şəxsən təqdim etmişəm və bunu özüm üçün borc bilirəm. Bu, mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim.

Şəhid ailələrinə diqqət, eyni zamanda, keçən il özünü bir daha göstərdi. Keçən ilin aprel ayında Azərbaycan xalqı bir daha mənə etimad, inam göstərdi, məni prezident vəzifəsinə seçdi. Mənim birinci Fərmanım şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı idi. Təbii ki, bu, təsadüfi deyil. Mən istənilən sahə üzrə fərman imzalaya bilərdim. İqtisadi sahə üzrə, xarici siyasət, sosial məsələlərlə bağlı. Ancaq mən hesab edirdim ki, birinci Fərman şəhid ailələri ilə bağlı olmalıdır. Bu Fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulur. Yenə də deyirəm, mən heç bir ölkə ilə Azərbaycanı müqayisə etmək istəmirəm, ancaq bu da həqiqətdir ki, Azərbaycan bir çox ölkələrə bu sahədə nümunə göstərir.

Artıq ödəmə prosesi başlamışdır. Mənə verilən məlumata görə, üç mindən çox şəhid ailəsi 11 min manatı alıb. Ancaq bu proses zamanı məlum oldu ki, vaxtilə müavinəti alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Yəni, o illərdə - 1990-cı illərin əvvəllərində rəqəm böyük olsa da, - o vaxt 50 min manat nəzərdə tutulurdu, - ancaq o vaxtın 50 min manatı bu günün 11 min manatı ilə heç də müqayisə oluna bilməz. Mən bu məsələ ilə bağlı ictimaiyyətə öz fikrimi bildirdim. Bildirdim ki, bu məsələ ciddi araşdırılmalıdır və burada iki əsas amil üstünlük təşkil etməlidir: qanun və ədalət. Bir tərəfdən, vaxtilə bu müavinəti alan vətəndaşlar bu siyahıya daxil edilməməlidir, bunu qanun və qaydalar tələb edir. Digər tərəfdən, biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq. Bunu nəzərə alaraq, mən bu gün yeni Fərman imzaladım. Bu Fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Onların içərisində təbii ki, vaxtilə müavinəti az məbləğdə alan vətəndaşlardır və ümumiyyətlə, siyahıya düşməyən daxili işlər orqanları şəhid ailələrinin nümayəndələridir, onların da sayı 460-dan çoxdur.



Təbii ki, bu, böyük vəsait tələb edir. Bu proqramın icrası üçün dövlət büdcəsindən ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur. Bu, kifayət qədər böyük məbləğdir. Biz çalışırıq ki, hər bir vəsaitə çox qənaətlə yanaşaq. Biz çalışırıq ki, bu gün ölkəmizin iqtisadi, sosial inkişafını şərtləndirən istiqamətlərə böyük dəstək verək. Ancaq mən həmişə demişəm ki, bizim üçün Azərbaycan vətəndaşlarının rifahı, onların dolanışığı başlıca vəzifədir. Ona görə bu qərarın qəbul edilməsi, ilk növbədə, ədalətlidir və digər tərəfdən, Prezidentin Fərmanından sonra bu, artıq rəsmi sənəd olaraq qüvvəyə minir. Bu iki amili biz təmin etmişik.

Mən bir daha demək istəyirəm ki, bundan sonra da vətəndaşların sosial məsələləri daim diqqət mərkəzində olacaq. Şəhid ailələri üçün bundan sonra da evlər tikilib istifadəyə veriləcək. Təkcə keçən il 626 şəhid ailəsinə yeni mənzillər, yeni evlər verilmişdir. Bu il əlavə 800 şəhid ailəsinə yeni mənzillər, evlər veriləcəkdir. Növbəti bir neçə il ərzində bütün şəhid ailələri evlərlə, mənzillərlə təmin ediləcəklər. Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin.

Bu, bizim siyasətimizdir, bu, bizim yolumuzdur, biz bu yolu gedirik. Bu gün sizi buraya, Prezident Sarayına dəvət edərək istədim ki, bu sözlərimi, bu fikirlərimi sizə özüm çatdırım. İstədim ki, bir daha sizinlə görüşüm, bir daha sizə öz təşəkkürümü, dərin hörmət və ehtiramımı bildirim. Sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, siz bundan sonra həyatda heç vaxt belə dəhşətli faciələrlə üzüzə qalmayasınız. Sağ olun.

Sonra dövlətimizin başçısı birdəfəlik ödəməni almaq üçün istifadə olunan plastik kartları şəhid hərbi qulluqçularının vərəsələrinə təqdim etdi.

Şəhid anası İbadət Əliyeva, şəhid atası Şirvan Nüsrətov, şəhidin həyat yoldaşı Vərziyar Əliyeva, şəhidin vərəsəsi Sevinc Quluzadə çıxış edərək ölkə Prezidentinə bu diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

Görüşə yekun vuran Prezident İlham Əliyev dedi:

- Deyilən bütün xoş sözlərə görə sizə minnətdaram. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqına xidmət etmək mənim üçün böyük şərəfdir. Prezident kimi həmişə çalışmışam ki, xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanın hərtərəfli inkişafına təkan verim.

Bu gün Azərbaycan dünya miqyasında sürətlə, uğurla inkişaf edən dövlətlərdən biridir. Ölkəmizin iqtisadi, hərbi potensialı güclənir. Xüsusilə qeyd etməliyəm ki, uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycan bu gün çox böyükmiqyaslı sosial layihələri icra edə bilir. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, maddi vəziyyətimiz pis olsaydı, biz bu layihələri, bu təşəbbüsləri irəli sürə bilməzdik. Vaxtilə müavinəti almış vətəndaşlar o zaman az məbləğ alıblar. O vaxt əgər biz onu dollara çevirsək, müavinət təqribən 20-50 dollar ətrafında idi. Yəni, imkanımız buna çatırdı, imkan yox idi. Ancaq bu gün 11 min manat tam başqa dəyər təşkil edir. Ona görə ölkəmizin iqtisadi inkişafı, maddi vəziyyətin yaxşılaşdırılması imkan verir ki, biz bir çox sosial layihələri icra edək. Biz yüzdən çox şəhərciyi öz pulumuzla tikmişik, 6650 şəhid ailəsinə mənzil verilib. Qeyd etdiyim kimi, bütün şəhid ailələri mənzillərlə təmin olunacaqlar, ardıcıllıqla, artıq proqram tutulur.



Ölkəmizin hərbi potensialının möhkəmlənməsi üçün çox böyük vəsait tələb olunur. Biz indi ordumuzu ən müasir silahlarla təchiz edirik. Nəyə görə? Çünki biz müharibə şəraitindəyik. Ona görə ki, bizim torpaqlarımız işğal altındadır. Bu məqsədlər üçün də böyük vəsait ayrılır. Ötən il Bakıda iki hərbi parad keçirilmişdir. Bu paradlar bizim çox güclü hərbi potensialımızı göstərdi. Bu gün Azərbaycan Ordusu dünya miqyasında ən güclü ordular sırasındadır. Biz ölkə qarşısında duran problemləri hərtərəfli həll etməyə çalışırıq. Sosial məsələlərin həlli prioritetdir. Ancaq bu məsələlərin həllinə nail olmaq üçün güclü iqtisadiyyat olmalıdır. Ona görə iqtisadi inkişaf bundan sonra da elə olmalıdır ki, sosial layihələri icra etməyə imkan versin.

Bilirsiniz, biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının öz qanunları var. Bəzi hallarda bazar iqtisadiyyatı sosial siyasətlə o qədər də uzlaşmır. Hesab edirəm ki, ölkəmizin uğurlu inkişaf modeli bu iki önəmli amilin hər iki istiqamətini özündə ehtiva edir. Çünki biz iqtisadi inkişafa ona görə nail olmaq istəyirik ki, sosial məsələləri daha genişmiqyaslı həll edək və vətəndaşlarımız daha da yaxşı yaşasınlar. Ağır vəziyyətdə yaşayan vətəndaşlara biz imkan daxilində kömək göstəririk. Biz evini, eşiyini, torpağını itirmiş vətəndaşlar üçün şəhərciklər salırıq, evlər tikirik, onlara mənzillər veririk. Bu gün hələ də öz maddi imkanlarını lazımi səviyyədə təmin edə bilməyən vətəndaşlara dövlət tərəfindən ünvanlı sosial yardım göstərilir.

Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, ünvanlı sosial yardım proqramı çox geniş miqyas alıb. Biz indi hələ ki, işlə özünü təmin edə bilməyən vətəndaşlar üçün yeni imkanlar axtarırıq, tapırıq, özünüməşğulluq proqramı artıq geniş vüsət alacaqdır. Təkcə bu il 7 min ailə özünüməşğulluq proqramı ilə əhatə olunacaq. Nəyə görə? Çünki imkanı olmayan ailələr dövlət tərəfindən xüsusi vasitələrlə təmin olunsunlar ki, onlar özləri üçün kiçik biznes qura bilsinlər. Bütün bu işləri görmək üçün əlbəttə ki, ölkəmizdə bugünkü siyasət davam etdirilməlidir. Bu siyasət yeganə düzgün siyasətdir. Məhz bu siyasət nəticəsində Azərbaycan dünya miqyasında müstəqil ölkə kimi özünü göstərə bilib.

Bu gün çıxışlarda Cocuq Mərcanlıdan danışıldı. Cocuq Mərcanlı bizim əyilməz iradəmizin rəmzinə çevrilib. Cocuq Mərcanlının abadlaşdırılması, yenidən qurulması hərbi qələbə nəticəsində mümkün olmuşdur. Biz sübut etdik ki, döyüş meydanında da düşməndən üstünük. Biz ermənilərin, Ermənistan rəhbərliyinin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdik. Onlar sübut etməyə çalışırdılar ki, hərbi cəhətdən bizdən üstündürlər və buna görə də 1990-cı illərin əvvəllərində bizim torpaqlarımızı zəbt edə biliblər. Bu işğalın səbəbləri haqqında Azərbaycan ictimaiyyəti yaxşı bilir. Onun başlıca səbəbi o vaxt Azərbaycan rəhbərliyində təmsil olunan xəyanətkar, satqın, səriştəsiz, biliksiz adamlardır. Onlar öz aralarında mübarizə, müharibə apararaq imkan verdilər ki, düşmən torpaqlarımızı zəbt etsin. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan güclü dövlətdir, Azərbaycan əsgəri, zabiti qorxmaz zabit və əsgərdir, peşəkardır. Göstərdi ki, ölkəmizin güclü ordusu var və onu göstərdi ki, Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayıb və barışmayacaq. Aprel döyüşlərindən iki il sonra uğurlu Naxçıvan əməliyyatı keçirildi. 2016-cı ilə nisbətən daha böyük, bir neçə dəfə böyük ərazi nəzarətimizə keçdi, işğalçılardan azad edildi. Bu gün biz Ermənistan ərazisindən keçən strateji yollara, kommunikasiyalara nəzarət edirik. Biz bundan sonra da öz hərbi gücümüzü artıracağıq. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz istəmirik ki, şəhidlər olsun, istəmirik ki, gənclərimiz şəhid olsun. Münaqişəni sülh yolu ilə həll etmək üçün həm siyasi, həm iqtisadi, həm hərbi güc olmalıdır. Bu gün bu üç amil var və ölkəmizi gələcəyə aparır.

Əziz bacılar, qardaşlar, nənələr, babalar, mən bir daha sizə öz dərin hörmətimi bildirmək istəyirəm. Siz Vətən üçün gözəl övladlar yetişdirmisiniz. Siz öz yaxınlarınıza arxa-dayaq olmusunuz. Siz öz şəhid olmuş övladlarınızla fəxr edə bilərsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə fəxr edir. Şəhidlərimiz daim bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaqdır. Sağ olun.

### 2 Fevral Gənclər Günüdür

# Gənclər sabahımızdır

*Gənclik millətin gələcəyinin, inkişafının təməl daşıdır. Millətin mövcudluğu üçün sağlam gənclik vacib şərtdir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların hazırlığından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır.*

2 Fevral Gənclər Günüdür. Bu əlamətdar tarixi gün gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verən, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli liderimiz Heydər Əliyev öz siyasətində daima gənclərə qayğı göstərmişdir. Ulu Öndər respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görmüşdür.

Hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayan Ulu Öndər gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə xüsusi önəm vermişdir. Müdrik dövlət xadimi gənclərə böyük ümidlərlə baxaraq cəmiyyətin aparıcı qüvvəsinə inam bəsləyirdi.

Ötən əsrin 70-ci illərində Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə gənc nəsildə vətənpərvərlik hisslərinin oyanmasına, gənclərimizin hərbi peşələrə marağının yüksəlməsinə zəmin yaranmışdı. Bu gün Silahlı Qüvvələrimizdə qulluq edən neçə-neçə generalımız, yüksək rütbəli zabitlərimiz Hərbi liseyin məzunlarıdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Uzaqgörən dövlət başçısı gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Bundan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilməyə başladı, nazirliyin yerli strukturları formalaşdı, gənc nəslin mənəvi tərbiyəsi, fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görüldü, bir sıra dövlət proqramları hazırlandı.

> **Ümummilli lider Heydər ƏLİYEV:**
>
> *Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq.*




Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da ulu öndər Heydər Əliyev tərəfindən imzalanan Sərəncama əsasən, 1996-cı il fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət və qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu.

1997-ci il fevralın 1-də gənclərin I Forumunun ildönümü münasibəti ilə bir qrup gənci qəbul edən Heydər Əliyev fevralın 2-sini Azərbaycanda gənclər günü elan edilməsi barədə sərəncam imzaladı. Həmin vaxtdan etibarən fevralın 2-si MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başladı.

Azərbaycan Respublikası gənclərinin forumu mütəmadi olaraq keçirilir. Gənclərin ikinci forumu 1999-cu ildə keçirildi. Gənclərə xüsusi diqqət ayıran ölkə rəhbəri Heydər Əliyev forumda çıxış edərək gənclərə müraciət etdi: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq." Bu sözlərlə gəncliyə olan etimadının, diqqətinin sonsuz olduğunu göstərən Ulu Öndər Azərbaycan gəncliyinin üzərinə böyük vəzifələr qoydu.

Görülən işlərin davamı olaraq 2003-cü il oktyabrın 13-də keçirilmiş Azərbaycan gənclərinin III Forumu əvvəlki forumlardan ötən dövr ərzində görülmüş işlərin layiqincə qiymətləndirilməsi və gənclərə azərbaycançılıq məfkurəsinin aşılanması yollarını müəyyənləşdirərək, qərarların yerinə yetirilməsi üçün ölkənin bütün qüvvələrini səfərbər etməsi ilə yadda qaldı.

Ulu Öndərin gəncliyə və gənclərə etimadı artıq öz təsdiqini tapmaqdadır. Bu gün gənc nəslin düzgün formalaşması ölkə siyasətində önəmli yer tutmaqla yanaşı, gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətini də uğurla davam etdirir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması, inkişafı üçün yaradılan şərait bu sahəyə böyük diqqətin nəticəsidir. Dövlətin gənclərlə bağlı siyasətinin uğurla həyata keçirilməsində bu mühüm addımın böyük rolu vardır.

Ölkə başçısının gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" və "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət proqramları xüsusi qeyd edilməlidir. Deməli, ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasəti gələcək nəslin intellektual səviyyəsinin artmasına da olduqca müsbət təsir göstərir.

2015-2025-ci illəri əhatə edən Azərbaycan gənclərinin İnkişaf Strategiyası uğurla icra olunmaqdadır. Azərbaycanda uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Gəncliyimiz azad düşünür, demokratik cəmiyyətdə yaşayır, məhdudiyyətsiz olaraq fəaliyyət göstərir. Bütövlükdə, ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü və ardıcıl siyasət nəticəsində gənclər bu gün demokratikləşmə prosesində, mədəniyyət, incəsənət, elm və idman sahəsində inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atırlar. Prezident İlham Əliyev qloballaşma əsrində dünya elminə, təhsilinə inteqrasiyanı vacib sayaraq azərbaycanlı gənclərin xaricdə təhsil almasına ciddi əhəmiyyət verir. Burada məqsəd, şübhəsiz, yeni düşüncəli, milli ruhlu gənclik formalaşdırmaq, dövlət idarəçiliyi yüksək ixtisaslı kadrlarla təmin etməkdir.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində zəruri tədbirlər həyata keçirilir. "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" qanunlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramı da bu qəbildəndir.

Prezident İlham Əliyevin 2007-ci ili "Gənclər ili" elan etməsi gənclərə ölkə Prezidenti tərəfindən böyük önəm verilməsinin daha bir sübutudur.

Ulu Öndər deyirdi ki, gənclərimizin ən mühüm vəzifələrindən biri də ordu sıralarında qulluq etməkdir. Gənclərimizin böyük bir qismi hazırda Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borcunu verməkdədir. Onlar burada təlim və məşğələlərdə döyüş hazırlığını artırır, mənəvi-psixoloji cəhətdən daha da möhkəmlənir, bir sözlə, Azərbaycanın təhlükəsizliyi naminə qüvvələrini əsirgəmirlər. Aprel döyüşlərində düşmən qüvvələrinin qətiyyətli şəkildə məhv edilərək işğal altında olan bir sıra ərazilərin azad olunması, Azərbaycan əsgərinin son damla qanına kimi vuruşaraq şəhidliyə yüksəlməsi bir daha sübut etdi ki, gənclərimizin vətənpərvərlik duyğuları yüksəkdir. Onlar istənilən vaxt torpaqlarımızı işğaldan azad etməyə qadirdirlər.

Hazırda ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin nəticəsidir ki, sosial həyatın bütün sferalarında onlar çoxluq təşkil edirlər. Təbii ki, bu, gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyulan vəzifənin reallaşmasının göstəricisidir.

Gənclər dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Prezident İlham Əliyev demişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplamalı, Vətənin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə başçısının etimadını həmişə doğrultmalı, hər an Ali Baş Komandanın verəcəyi əmrə müntəzir olmalıdırlar.

Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Azərbaycan gəncliyi sabahın əsl qayğıkeşləri olacaq.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Naxçıvan Qarnizonu qoşunlarında 2018-ci tədris ilində döyüş və döyüşə hazırlığın, maddi-texniki təminatın və hərbi intizamın vəziyyətinə dair yekun müşavirə keçirilib




*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığına əsasən, Naxçıvan Qarnizonu qoşunlarında 2018-ci tədris ilində döyüş və döyüşə hazırlığın, maddi-texniki təminatın və hərbi intizamın vəziyyətinə dair yekun müşavirə keçirilib.*

Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev müşavirənin planını, iştirak edən rəsmi qonaqların və şəxsi heyətin tərkibini elan etdikdən sonra muxtar respublikamızda ordu quruculuğundan bəhs edən "Ordumuz qürurumuzdur" adlı film nümayiş etdirilib.

Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev 2018-ci tədris ilində qoşunlarda döyüş hazırlığının, döyüş və döyüşə hazırolmanın, maddi-texniki təminatın və hərbi intizamın vəziyyətini təhlil edərək məruzə edib. Bildirilib ki, təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasına yüksəlib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yüksək diqqət və qayğısı sayəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün yerləşdiyi coğrafi mövqeyə, kontingentinə və döyüş qabiliyyətinə görə keçmiş SSRİ və indiki MDB ölkələrinin silahlı qüvvələri səviyyəsində analoqu olmayan statusa malikdir.

Yola saldığımız 2018-ci ildə "İslam Mədəniyyətinin Paytaxtı" kimi şərəfli adı uğurla daşıyan Naxçıvan bir sıra əlamətdar tədbirlərə ev sahibliyi edib. Ötən il də, bu qədim diyarın müdafiə qabiliyyətinin yüksəldilməsi baxımından yaddaqalan olub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ötən il mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun 60 çarpayılıq yeni hərbi xəstəxanasının açılışında iştirak etməsi, silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə, "N" hərbi hissəsində və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Milli Qəhrəman Əmiraslan Əliyev adına Qaraçuq Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olması dövlət qayğısını hər zaman üzərlərində hiss edən hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradıb.

Azərbaycan Xalq Cümhuriyyətinin və ordusunun 100 illik yubileyini qeyd etdiyimiz 2018-ci ilin ən əlamətdar hadisələrindən biri də Əlahiddə Ümumqoşun Ordunun tariximizə qızıl hərflərlə yazdığı Günnüt zəfəri oldu. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında da qeyd olunduğu kimi, Naxçıvan Əlahiddə Ümumqoşun Ordu 1992-ci ildə işğal edilmiş Günnüt kəndi və ətraf əraziləri, ümumilikdə 11 min hektar torpaq sahəsinə nəzarəti qaytarmış, ön xətdə və dayaq məntəqələrində etibarlı müdafiə sistemi yaradılmışdır.

General-leytenant Kərəm Mustafayev bildirib ki, qazanılan nailiyyətlərin əsasında ilk növbədə vətənpərvərlik hissləri dayanır. Ötən il oktyabrın 30-da keçirilən Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimi bu fikri bir daha təsdiq edib.

Ötən il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün tikilmiş yeni xidməti və yaşayış kompleksinin, yeni avtomobil parkının, əsgəri-məişət komplekslərinin açılışında iştirak etmiş, yeni istirahət parkı və Açıq Səma Altında "Naxçıvan Döyüş Şöhrəti Muzeyi" ilə tanış olmuş, ordumuz tərəfindən nəzarət altına götürülərək etibarlı müdafiə sistemi qurulan Günnüt kəndindəki hərbi hissədə şəxsi heyətlə görüşmüş, yeni mövqelərdə xidmətin təşkili ilə maraqlanmış, "Günnüt əməliyyatı"nda iştirak edən əsgər və zabitlərə hədiyyələr təqdim etmişdir.

Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev vurğulayıb ki, ümumilikdə ötən il ərzində keçirilən tədbirlər şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğunu təsdiq edib. Qarnizonun "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarı əməldə özünü göstərib.



Məruzə ətrafında müzakirələr zamanı Naxçıvan Muxtar Respublikası hərbi prokurorunun müavini, ədliyyə polkovnik-leytenantı Rəşad İsmayılovun, Hərbi Məhkəmənin sədri Polad Həsənovun, Dövlət Təhlükəsizliyi Xidmətinin İdarə rəisi polkovnik-leytenant Ramin Əhmədovun, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri general-mayor Niyaməddin Tağıyevin, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar nazirinin müavini general-mayor Hikmət Kərimovun, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri polkovnik Səlim Niftəliyevin 2018-ci tədris ilində görülmüş işlər və 2019-cu tədris ilində qarşıda duran vəzifələrlə bağlı məruzə və təklifləri dinlənilib. General-mayor Fazil Ağalarov "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı" haqqında ətraflı məlumat verib.

Müşavirəyə Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev yekun vuraraq 2019-cu tədris ilində döyüş və ictimai-siyasi hazırlıq üzrə fəaliyyət istiqaməti, qarşıda duran məqsəd və vəzifələrə dair Ali Məclis sədrinin tapşırıqlarını diqqətə çatdırıb. Bildirilib ki, yeni tədris ilində də Naxçıvan Qarnizonu qoşunları qarşıda duran bütün tapşırıqları layiqincə yerinə yetirəcək, Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən təsdiq edilən "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na uyğun olaraq döyüş qabiliyyətini yüksəldəcəkdir. Naxçıvanın müdafiə və mühafizəsi daha da təkmilləşdiriləcək, muxtar respublikanın təhlükəsizliyinə qarşı yönəlmiş hər hansı bir təhdidin qarşısı qətiyyətlə alınacaqdır.

Sonda döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr əldə etmiş bir qrup hərbi qulluqçuya "Şücaətə görə" medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci, 2-ci və 3-cü dərəcəli medalları, qiymətli hədiyyə və fəxri fərman təqdim olunub.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi,**
**fotolar**
**əsgər**
**T.KƏRİMZADƏNİNDİR**

*Gənc zabitlərimiz*

# "Biz qalib gələcəyik"

Dünyanın ən güclü orduları sırasında yer alan qüdrətli ordumuzun maddi-texniki təchizatı möhkəmləndikcə onun sıralarında xidmət edən zabitlərimizin peşəkarlığı da gündən-günə artmaqdadır. Bu gün ordumuz peşəkar kadrlarla komplektləşdirilərək potensial qüvvəyə çevrilir. O qüvvəyə ki, ərazi bütövlüyümüz uğrunda Ali Baş Komandanın döyüş əmrinə hər an hazırdır. O qüvvəyə ki, təmas xəttində Vətənimizin keşiyində xalqımızın rifahı naminə ayıq-sayıq dayanır və düşmənin təxribatlarının qarşısını cəsarətlə alır.

Ön xətt bölmələrimizdə xidmət edən gənc zabitlərimizin vətənpərvərliyindən, qorxmazlığından çox yazılıb. Onlarla söhbət çox maraqlıdır. Bu söhbətlər zamanı Vətən, torpaq heysiyyətli gənclərimizin zəngin daxili aləmlərini görürsən. Düşmənlə üzbəüz mövqedə ölümün gözünə dik baxan bu gənclərlə yalnız fəxr edib qürur duyursan. Elsevər Əmiraslanov da belə hünərli Vətən oğludur. Döyüş mövqeyində xidmət edən Elsevər nümunəvi zabit kimi komandanlığın etibarını qazanıb. 2016-cı ildə Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən qiymətli hədiyyə ilə mükafatlandırılıb.

Bir çox yaşıdları kimi o da orta məktəb illərindən ömrünü bağlayacağı bir sənət seçir. Özü də ən gərəkli, ən məsuliyyətli və ən müqəddəs bir sənəti, hərb sənətini. Özəllikləri ilə özünə cəlb edən hərb sənətinə vurğunluğu onu C.Naxçıvanski adına Hərbi Liseyə gətirir. Sənədlərini təqdim edir. Qəbul olunur. Bu zaman həyatının ən sevincli anlarını yaşayır, Elsevər. İlk dərs günündə kursant formasında özünü dünyanın xoşbəxti sanır. O da Vətəni qorumaq peşəsinin sirlərinə yiyələnəcək. Sonra düşmən tapdağında qalan torpaqlarımızın azadlığı uğrunda döyüşə hazır olan zabitlərimizin sırasında Vətənin müdafiəsində dayanacaq...



Elsevər liseydə oxuduğu illərdə ilkin hərbi vərdişlərə yiyələnir, iradəli, bacarıqlı, dözümlü olmaq kimi hərbçiyə məxsus xarakterik xüsusiyyətləri özündə tərbiyə edir. 2012-ci ildə Hərbi liseyi yaxşı nəticələrlə başa vurub Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Burada da peşəkar, təcrübəli müəllimlərindən hərb elminin sirlərini öyrənir. Verilən tapşırıqları vaxtında yerinə yetirir. Adı hazırlıqlı və nümunəvi kursantlar sırasında çəkilir. O, daima öz üzərində çalışır və gələcəkdə peşəkar zabit olmaqdan ötrü ixtisas fənlərini daha dərindən mənimsəyir. İllər arxada qalır... Nəhayət, Elsevər ali hərbi məktəbi başa vurub ordumuzun zabitləri sırasında leytenant ulduzunu çiyninə taxır, Ana Vətənimizi yağılardan qorumaq üçün ön xətt bölmələrimizdə xidmətə başlayır. Nümunəvi zabit kimi özünü təsdiqləyir. Təlimlərdə xüsusi bacarığı ilə seçilir. Getdikcə daha da püxtələşir. Düşmənlə üzbəüz mövqedə xidmət edən gənc zabit Elsevər Əmiraslanov bununla iftixar hissi yaşadığını dedi:

"Biz gənc zabitlər gələcək üçün döyüş bacarıqlarımızı ön xətt bölmələrimizdə xidmət keçməklə artırmalıyıq. Çünki qarşıda bizi illərdir erməni əsirliyində qalan müqəddəs torpaqlarımız gözləyir. İndi o torpaqlarda şəhidlərimizin narahat ruhları gəzir. Qaçqın və köçkün soydaşlarımızın öz ata-baba yurdlarına qayıtmaq arzularını biz gerçəkləşdirməliyik. Necə ki, ordumuzun aprel qələbəsindən sonra yüzlərlə Cocuq Mərcanlı sakini doğma el-obasına qovuşdu, müqəddəs torpağına qayıtdı. Qarşıda hələ belə qələbələrimiz çoxdur. Biz düşməni torpaqlarımızdan qovacağıq. Üçrəngli bayrağımız o torpaqlarda da dalğalanacaq. Bu amalla Vətənimizə xidmət edirik."

Leytenant Elsevər Əmiraslanov komandir kimi hər an, hər dəqiqə döyüş əmri gözləyir, qələbə arzuları ilə yaşayır. Elsevərin dediyi son söz də bunu sübut edir: "Əgər sülh danışıqları baş tutmasa və torpaqlarımızın azadlığı naminə hücum əmri verilsə, qələbəmiz labüddür, biz qalib gələcəyik".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

# “N” hərbi hissədə təlim-metodiki toplantı keçirilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2019-cu il üçün təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, birlik, birləşmə, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin, qoşun qismlərinin və əlahiddə bölmə komandirlərinin şəxsi heyətlə iş üzrə müavinlərinin və psixoloqların iştirakı ilə keçirilən toplantıdan irəli gələn tələbləri, vəzifə və tapşırıqları bu istiqamətdə fəaliyyət göstərən zabit heyətinə çatdırmaq məqsədilə "N" hərbi hissəsində təlim-metodiki toplantı keçirilib.

Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

General-mayor Mayis Bərxudarov toplantıda geniş məruzə ilə çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. “Ordu quruculuğu sahəsində görülən işlər hərbi hissələrin maddi-texniki təminatının möhkəmləndirilməsinə və şəxsi heyətin döyüş hazırlığının artırılmasına səbəb olub. Eyni zamanda ölkəmizin müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaradıb. Bu gün ordumuzun döyüş qabiliyyətinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Hərbi hissələrimizin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı əhəmiyyətli dərəcədə artırılır. 2018-ci ildə



də bu sahədə görülən işlər davam etdirilib, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iştirakı ilə bir çox hərbi hissələr, əsgər yataqxanaları və əsgəri-məişət kompleksləri istifadəyə verilib. Bu gün müstəqil Azərbaycanda ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin rəhbərliyi ilə ordumuz inkişaf edərək müasir səviyyəyə çatıb. Ən yeni silah və texnika ilə təminat, vətənpərvər və peşəkar şəxsi heyət, hərbi qulluqçulara davamlı qayğı Azərbaycan Ordusunun reallıqlarıdır. Azərbaycan Ordusunun birlik və birləşmələri mühüm təşkilatlanma yolu keçərək daha da möhkəmlənib.

Birləşmə və hərbi hissələrdə şəxsi heyət arasında vəzifə borcuna məsuliyyət daha da artırılıb, döyüşə hazırlıq günün tələbləri səviyyəsində qurulub, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı və hərbi intizamı möhkəmləndirilib.

Əldə olunan bu uğur şəxsi heyəti qürurlandırmaqla yanaşı, həm də qarşıya daha mühüm vəzifələr qoyur. Ali Baş Komandanın döyüş əmrinə hazır, yüksək döyüş imkanlarına, müasir silah və texnikalara malik olan Azərbaycan Ordusu bundan sonra da ölkəmizin müdafiəsini etibarlı şəkildə təşkil edəcəkdir".

Polkovnik Elşad Əbilov bildirib ki, Azərbaycan Ordusunda keçirilən mənəvi-psixoloji hazırlıq işi şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasına, əsgəri borcun yerinə yetirilməsində məsuliyyət hissinin artırılmasına yönəlib. "Hərbi hissələrimizdə yüksək hərbi intizamın saxlanılması və şəxsi heyətin döyüş keyfiyyətlərinin artırılması məqsədilə zəruri olan tədbirlər Müdafiə Nazirliyi rəhbərliyinin təsdiq etdiyi döyüş hazırlığı planı əsasında yerinə yetirilir. Mənəvi-psixoloji hazırlıq işinin səmərəliliyini yüksəltmək, intizamı möhkəmləndirmək, şəxsi heyətlə iş üzrə komandir müavinlərinin bilik və bacarıqlarını artırmaq qarşımızda dayanan əsas məsələlərdir. Ümumiyyətlə şəxsi heyətin vətənpərvərlik ruhunu, döyüş əzmini artırmaq ordu rəhbərliyinin diqqət mərkəzindədir və bu istiqamətdə fəaliyyətimizi bundan sonra da səmərəli qurmalı, yeni metod və üsullardan yararlanmalıyıq. Azərbaycanın dövlət rəhbərliyinin münaqişənin həlli istiqamətində atdığı addımlara baxmayaraq işğalçı Ermənistan öz çirkin niyyətindən əl çəkmək istəmir. Şübhəsiz, belə bir şəraitdə biz qanuni ərazilərimizi işğaldan azad etməyə hazırıq. 2016-cı ilin aprel döyüşlərində qazanılan qələbə və 2018-ci ilin Günnüt zəfəri sübut etdi ki, Azərbaycan Ordusunun şəxsi heyəti qarşıya qoyulmuş döyüş tapşırığını, yəni, torpaqlarımızı hərb yolu ilə işğaldan azad etməyə tam hazırdır. Belə bir mühüm döyüş vəzifəsinin uğurla yerinə yetirilməsində şəxsi heyətlə iş üzrə zabitlərin də üzərinə böyük məsuliyyət düşür. Hər kəs bu vəzifənin məsuliyyətini dərindən hiss edərək vəzifə və tapşırıqları yerinə yetirmək üçün əlindən gələni əsirgəməməlidir".

Elmi-metodiki toplantıda müxtəlif hərbi hissələrin zabitləri çıxış edərək şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ilə bağlı fikir və təkliflərini bölüşüblər.

General-mayor Mayis Bərxudarov tədbiri yekunlaşdıraraq toplantı iştirakçılarına müvafiq tövsiyələrini verib.

Sonda hərbi hissələrin səyyar təbliğat məntəqələrinə və səyyar təşviqat guşələrinə baxış keçirilib. Mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr üzrə sənədlərin tərtibatı yoxlanılıb. Yekunda təlim-metodiki toplantı yüksək qiymətləndirilib.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 29-da Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində növbəti monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru, Oqnyen Yoviç və Martin Şuster keçiriblər.

***29 yanvar 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Məzəm kəndlərində, Berd rayonunun Ayqepar və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Koxanəbi və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Şirvanlı, Sarıcalı, Füzuli rayonunun Qərvənd kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Əfsanəvi sərkərdə Həzi Aslanov anılıb

*Beyləqan rayonunda iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 109-cu və vəfatının 74-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. Tabelikdə olan hərbi hissələrin şəxsi heyətinin, müharibə veteranlarının, ictimaiyyət nümayəndələrinin, müəllim və şagirdlərin iştirakı ilə H.Aslanovun abidəsi önünə əklil və gül dəstələri qoyulub, generalın xatirəsi hörmət və ehtiramla yad edilib.*



Əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Polkovnik-leytenant Seymur Həbibullahov çıxış edərək bildirib ki, xalqımızın igid övladı, Böyük Vətən müharibəsinin iştirakçılarından olan Həzi Aslanovun qəhrəmanlıqla dolu həyat yolu hər bir vətəndaşımız üçün nümunədir. “Ümummilli lider Heydər Əliyev Həzi Aslanovun hərb tarixində müstəsna rol oynadığını dəfələrlə qeyd edib və qəhrəmanın adının əbədiləşdirilməsi üçün bir çox sərəncamlar imzalayıb. Bu diqqət Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən davam etdirilir.”

Mayor Şöhrət Əhmədov H.Aslanovun şərəfli döyüş yolundan danışaraq qeyd edib ki, o, Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biridir. Zabit sərkərdənin Böyük Vətən müharibəsi zamanı düşmənlə qeyri-bərabər döyüşdə qazandığı inamlı qələbələri, göstərdiyi şücaətləri bir daha xatırladıb.

Mayor Nemət Rəhimov H.Aslanovun xidmətlərindən danışıb, faşizm üzərində tarixi qələbənin qazanılmasında göstərdiyi qəhrəmanlıqları ilə yaddaşlarda iz qoyan, Vətən torpaqlarının azadlığı uğrunda son damla qanını belə əsirgəməyərək düşmənlə mübarizə aparan bu qəhrəman həmvətənimizin xalqımız tərəfindən hər zaman qürur və hörmət hissi ilə yad ediləcəyini, onun adının və şərəfli döyüş yolunun gələcək nəsillər üçün hər zaman əsl vətənpərvərlik nümunəsi olacağını vurğulayıb.

Bildirilib ki, 1941-ci ilin iyununda müharibənin od-alovları içərisinə atılan qəhrəman həmyerlimizin komandanlıq etdiyi tank briqadası Donbas, Moskva, Xarkov, Stalinqrad, Taqanroq, Kursk və digər ərazilərin faşizmdən azad olunmasında fəal iştirak edib. Həzi Aslanov 34 yaşında Sovet İttifaqı Qəhrəmanı adına və general rütbəsinə layiq görülüb.



Onun adı qəhrəmanlıq simvoluna çevrilib.

Tədbirdə görkəmli sərkərdəyə həsr olunan film nümayiş edilib, Füzuli Dövlət Dram teatrının kollektivi tərəfindən bədii kompozisiya təqdim olunub.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Erməni terrorizmi. Ermənistanın Azərbaycana qarşı təcavüzü.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycanın tarixinə dair nəşr olunmuş vəsaitlərdən, dövri mətbuatda çap olunmuş materiallardan istifadə etməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq, mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

**1. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsinin yaranma tarixi.**

### *Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi*

Son iki (XIX-XX) əsrdə Azərbaycan ərazisində Azərbaycan xalqının rastlaşdığı ağır sınaqlarda, faciəli tarixi hadisələrdə bu və ya digər dərəcədə erməni izi vardır. Erməni siyasətçiləri tərəfindən istiqamətləndirilən erməni xalqı qonşu torpaqlarına sahib çıxmaq üçün yaranan hər bir fürsətdən əlverişli istifadə etməyə çalışır. Elə bunun üçündür ki, bölgədə mürəkkəb tarixi şərait yaranan kimi, ondan ifrat dərəcədə bəhrələnməyə çalışan ermənilər, içərisində və ərazisində yaşadıqları Azərbaycan xalqının hesabına bu gün artıq öz dövlətçiliklərinə də malikdirlər. Uzun illər boyu Azərbaycan xanlıqlarının ərazilərinə cəmləşdirilərək son nəhayətdə öz dövlətlərini yaradan ermənilər daha böyük iddialarla yaşayırlar.

Eramızın 327-ci ilinə kimi Kiçik Asiyada xırda dövlət olan Ermənistan sonralar İran dövləti və Bizans imperiyası arasında bölüşdürülmüşdür. Həmin vaxtdan İranın tərkibində olan erməni çarlığı 428-ci ildə tamamilə ləğv edilmiş, ermənilər isə bütün dünyaya səpələnmişlər. Bu zamandan 1918-ci ilin mayına qədər erməni dövləti, erməni milli dövlətçiliyi olmamışdır.

1917-ci ildə Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra mərkəzi Tiflis şəhəri olmaqla Azərbaycan, Gürcüstan və Ermənistanın ərazilərini birləşdirən Zaqafqaziya seymi yaradıldı. Seymə Azərbaycan və Gürcüstanın nümayəndələri ilə birlikdə ermənilər də daxil idilər. Ancaq hadisələrin sonrakı inkişafı nəticəsində 1918-ci il mayın 27-də Gürcüstan, 28-də isə Azərbaycan Zaqafqaziya seymindən çıxaraq müstəqil dövlət qurduqlarını elan etdilər. Bundan sonra isə ermənilərin ən çox məskunlaşdıqları keçmiş İrəvan xanlığının ərazisində mərkəzi İrəvan şəhəri olmaqla Ermənistan Respublikası yaradıldı. Burada ermənilərin Qərbi Azərbaycanda və Qarabağda məskunlaşması tarixinə nəzər salaq:

Səfəvilərin vaxtında Azərbaycan inzibati-ərazi quruluşuna görə bəylərbəyliklərə bölünmüşdü. İndiki Ermənistanın ərazisi, Naxçıvan da daxil olmaqla Çuxur Sədd bəylərbəyliyi adlanırdı. XVIII əsrdə Azərbaycanda olan fransız səyyahı Jan Şarden Çuxur Sədd bəylərbəyliyinin mərkəzi İrəvan qalasının 800 evdən ibarət olduğunu və burada ancaq təmiz qanlı səfəvilərin (yəni azərbaycanlıların) yaşadığını yazırdı.

1736-cı ildə Nadir şah Azərbaycanda mövcud olmuş inzibati-ərazi quruluşunu - bəylərbəylikləri (Qarabağ, Şirvan, Təbriz və Çuxur Sədd) ləğv etdi və həmin ərazilərdən ibarət mərkəzi Təbriz şəhəri olmaqla Azərbaycan vilayətini yaratdı.

1747-ci ildə Nadir şah öldürüldükdən sonra Azərbaycanın ərazisində müstəqil xanlıqlar, o cümlədən İrəvan xanlığı yarandı.

Rusiya qoşunları 1827-ci ildə Azərbaycanın paytaxtı Təbriz şəhərini işğal etdilər. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən, rus qoşunları Cənubi Azərbaycanı tərk etməli oldular. Çar Rusiyası öz əsarəti altına aldığı Şimali Azərbaycanda möhkəmlənmək üçün İranda yaşayan ermənilərin İrəvana və Qarabağa köçürülməsi prosesini təşkil etdi. Rus qoşunlarının komandanı general Paskeviçin Təbrizin milliyyətcə erməni olan komendantı polkovnik Lazarevə göndərdiyi direktivin 13-cü bəndində deyilirdi: "Ümumiyyətlə, xristianları (erməniləri) razı salmaq lazımdır ki, onlar Naxçıvan və İrəvan vilayətlərinə getsinlər. Xristian əhalisini həmin vilayətlərdə nə qədər mümkünsə çoxaltmaq nəzərdə tutulur". İrəvana göndərdiyi başqa bir direktivdə Paskeviç məsləhət görürdü: "Erməniləri yerləşdirmək üçün bir sıra müsəlman kəndlərini onların dindaşları daha çox məskunlaşmış yerlərə köçürmək olarmı?" Lazarev isə İran ermənilərinə erməni dilində müraciət edərək bildirirdi ki, imperator köçmək istəyənlərə Rusiya dövlətində - İrəvanda, Naxçıvanda və Qarabağda etibarlı, sakit və xoşbəxt sığınacaq verir.

Həmin illərdə on minlərlə erməni İrandan və Türkiyədən İrəvana və Qarabağa köçürülmüşdü. Rus-İran müharibəsi başa çatdıqdan sonra 1828-ci il martın 21-də rus çarı I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ləğv edildi, onların əvəzinə "erməni vilayəti" adlanan inzibati-ərazi vahidi yaradıldı.

XIX əsrin 90-cı illərində ermənilərin Türkiyədən kütləvi surətdə Qafqaza köçürülməsi ilə əlaqədar öz təcavüzkar siyasəti ilə məşhur olan erməni millətçi "Daşnaksütyun" partiyasının mərkəzi də Qafqaza köçdü və erməniləri Qafqaz xalqlarına qarşı təcavüzə təhrik etməyə başladı.

XX əsrin əvvəllərindən başlayaraq daşnaklar Gəncədə, İrəvanda, Qarabağda, Naxçıvanda və Bakıda azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişlər. 1905-ci ilin fevral ayında ermənilər tərəfindən Bakıda, Naxçıvanda, İrəvanda yüzlərlə azərbaycanlı qətlə yetirildi. 1918-ci ilin mart ayında Bakıda, Qubada, Lənkəranda Şaumyanın rəhbərliyi altında ermənilər 10 min azərbaycanlını qətlə yetirdilər.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra yaradılan Azərbaycan ordusu Türkiyə qoşunlarının köməyi ilə erməni silahlı birləşmələrinə qarşı bir sıra uğurlu əməliyyatlar apararaq azərbaycanlıların kütləvi qırğınının qarşısını ala bildilər. Lakin türk qoşunları Azərbaycanı tərk etdikdən və Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut etdikdən sonra Ermənistan rus bolşeviklərinin dəstəyi ilə 1921-ci ildə Azərbaycanın Zəngəzur bölgəsini ələ keçirə bildi.

### *XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsinin yaranma tarixi*

Sovet hakimiyyəti illərində öz məkrli niyyətlərini gizlədən ermənilər ermənipərəst Mixail Qorbaçovun (1985-1991-ci illərdə SSRİ rəhbəri olmuşdur) SSRİ rəhbərliyinə gəlişindən sonra fəal hərəkətlərə keçdilər. 1985-ci ilin dekabrında ABŞ-dakı erməni inqilabı federasiyası (daşnak partiyası) və erməni milli komitəsi Birləşmiş Ermənistan yaratmağı özlərinin strateji vəzifəsi elan etdi. "Birləşmiş Ermənistan" Naxçıvanı, Qarabağı və Gürcüstanın tərkibində olan Axalkalakini də özündə birləşdirməli idi.

Mixail Qorbaçovun milli siyasət sahəsində buraxdığı kobud səhvlərə qarşı öz etirazını bildirməklə ermənilərin planlarının həyata keçməsinə mane olan görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev 1987-ci ilin oktyabrında SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan dərhal sonra, 1987-ci ilin noyabrında Dağlıq Qarabağ erməniləri öz separatçı tələblərini irəli sürdülər və bununla da bu gün də öz həllini tapmamış Qarabağ problemi yarandı.

1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin (DQMV XDS) yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti DQMV XDS-nin konstitusiyaya zidd qərarını rədd etdikdən sonra Ermənistanın millətçi rəhbərləri "Daşnaksütyun" partiyasının "Türksüz Ermənistan" proqramını həyata keçirməyə başladılar.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək SSRİ Ali Sovetinə müraciət etdi ki, buna razılıq versin. 1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsini yolverilməz hesab etdikdən sonra, erməni millətçiləri türklərin Ermənistandan çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başladılar.

1988-ci ilin iyununda erməni dəstələri azərbaycanlılar yaşayan Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Müdafiəsiz qalmış 10 mindən çox azərbaycanlı SSRİ -Türkiyə sərhədində toplaşaraq, orada gecələməyə məcbur olmuşdu. Masis qəsəbəsində 3 mindən çox azərbaycanlı evlərindən çıxarılmışdı.

1988-ci ilin noyabrın ortalarına qədər Azərbaycana 80 mindən çox qaçqın pənah gətirmişdi. Noyabrın 17-də Bakının Azadlıq meydanında keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul edildi. Bu tələbdən narahat olan Ermənistan rəhbərliyinin noyabrın 22-də rayon rəhbərlərinə yerlərdə qayda-qanunu bərpa etmək (əslində isə bir həftə ərzində, yəni noyabrın 28-dək Ermənistanı türklərdən təmizləmək) tapşırığını verdi.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistanın azərbaycanlı əhalisi yaşayan kəndlərə ərzağın göndərilməməsi, elektrik xətlərinin kəsilməsi, kəndlərə silahlı basqınlar əhalini öz tarixi Vətənindən qaçqın düşməyə məcbur etdi. 1988-ci ilin noyabr-dekabr aylarında Azərbaycana 200 mindən çox soydaşımız pənah gətirdi.

Moskvanın ermənilərə arxa durması nəticəsində 1988-89-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məntəqəsi boşaldıldı. Ermənistanın Mehri rayonunda qalmış axırıncı azərbaycanlı kəndi Nüvədi (bu kənd 18 fevral 1929-cu ildə Zəngilan rayonundan qopardılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilmişdir) 1991-ci il avqustun 8-də boşaldıldı. Ümumiyyətlə, Ermənistanın 22 kənd və rayonundan, 6 şəhərindən 200 mindən artıq azərbaycanlı tarixi-etnik torpaqlarından qovuldu.

Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi Ermənistan ərazisinin (29,8 min kv.km) 25%-ni, yaxud təqribən 7,5 min kv.km-ni təşkil edirdi. Bu isə keçmiş DQMV-nin ərazisindən (4,4 min kv.km) 3,1 min kv.km artıqdır.

Ermənistan rəhbərliyi azərbaycanlıların deportasiyasını başa çatdırdıqdan sonra, onların yaşadıqları kəndlərin adlarını dəyişdirməyə başladı. Ermənistan Respublikası Ali Sovetinin 9 aprel 1991-ci il tarixli qərarı ilə 90 türk mənşəli yaşayış məntəqəsinin adı dəyişdirildi. Ümumiyyətlə, 1920-ci ildən 1988-ci ilin avqustuna qədər Ermənistanda 517 azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilib.

Son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azəri-türk yaşayış məntəqəsi müxtəlif yollarla (rəsmi köçürmələrlə, silah gücünə qovmaqla, soyqırımı törədərək, kəndləri yandırıb xaraba qoymaqla) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

1991-1993-cü illərdə Azərbaycanda yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdən istifadə edən Ermənistanın silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətrafda olan 7 rayonu - Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını və Zəngilanı işğal etməyə müvəffəq oldu.

2016-cı ildə Ermənistanın növbəti təxribatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində çox ciddi fəsadlara gətirib çıxarmışdır. Ermənistan daima danışıqları müxtəlif yollarla pozmağa çalışmış və beynəlxalq vasitəçilər tərəfindən onlara qarşı təzyiqlər artdığı halda növbəti təxribatlara əl atmağa başlamışlar. Həmin təxribatlardan biri də aprel ayının əvvəlində baş vermiş silahlı təxribat hadisəsidir. Lakin Azərbaycan Ordusu bu təxribatın qarşısını vaxtında alıb düşmənə layiqli cavab verərək, əks-hücum əməliyyatı həyata keçirmiş və işğal altındakı torpaqların bir hissəsini, daha dəqiq desək 2 min hektar torpağımızı düşmən tapdağından azad etmişdir. Aprel döyüşləri bir daha onu göstərdi ki, vasitəçilərin də dəfələrlə bəyan etdikləri kimi status-kvo tezliklə dəyişdirilməli və işğal edilmiş torpaqlar azad edilməlidir.

Bu gün Azərbaycanın hərbi potensialının gücləndirilməsi prioritet olaraq qalmaqdadır. Aprel hadisələrindən sonra ordumuz döyüş qabiliyyətini yüksək dərəcədə artırmış və ən müasir texnika, silah-sursat almaqda davam etməkdədir. Hazırda Azərbaycanın ərazisinin 20 faizi düşmən işğalı altındadır. Həmin torpaqların azad edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında məqsədyönlü siyasət aparılır. Bu fəaliyyətin tərkib hissəsi ordu quruculuğudur. Ali Baş Komandan ilk çıxışında ordu quruculuğunu daim öz diqqət mərkəzində saxlayacağını bildirmişdir: "Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern bir ordusunun olması ilə də diqqəti cəlb edir. Ulu Öndərin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində öz səylərini daha da artıran cənab Ali Baş Komandan Azərbaycan Ordusunun müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşdur. Bu isə hər bir hərbi qulluqçudan öz vəzifə borcunu vicdanla yerinə yetirməyi, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməyi, mənəvi-psixoloji və fiziki hazırlıqlı olmağı, hərbi intizamı möhkəmləndirməyi tələb edir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Qoşunlarda yeni tədris dövrü başlayıb



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yeni tədris dövrü başlayıb. Bütün hərbi hissələrdə keçirilən tədbirlərdə tədris dövrü üçün əsas məqsədlər və vəzifələr, eləcə də onların icra qaydaları diqqətə çatdırılıb.

Ordumuzda tədris prosesi Ali Baş Komandanın tələblərinə, Müdafiə nazirinin əmr və sərəncamlarına müvafiq olaraq döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə quruda, dənizdə, havada real təhdid və risklərin nəzərə alınması ilə təşkil edilərək keçiriləcək.

Dərslərin ilk günü bütün hərbi hissələrdə yüksək effektivlik və keyfiyyəti ilə fərqlənən döyüş hazırlığı üzrə məşqlər keçirilib.



# “Vətənə, dövlətə xidmət ömrümüzün mənasıdır”

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin və rayon icra hakimiyyətinin təşkilatçılığı ilə “N” hərbi hissəsində valideynlərin, veteranların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə ehtiyata buraxılmış gənclərin qarşılanma mərasimi keçirilib. Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub və dərin ehtiramlarını bildiriblər. Respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.*




Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Alı Alıyev gəncləri müddətli həqiqi hərbi xidməti uğurla başa vurmaları münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzu edib. İcra başçısı bildirib ki, Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi formalaşması, bu dövlətin qarantı olan Azərbaycan Ordusunun yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Vurğulayıb ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti gələcək uğurlarımızın təməlidir. Ümummilli Lider bütün dövrlərdə Azərbaycanın ərazi bütövlüyünün qorunmasına xüsusi əhəmiyyət verib, torpaqlarımızın erməni işğalından azad olunması istiqamətində var qüvvəsi ilə çalışıb. Hazırda bu siyasət Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Natiq onu da diqqətə çatdırıb ki, ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

SHXÇDX-nin rayon şöbəsinin rəisi polkovnik-leytenant Vüqar Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında daim güclənən Silahlı Qüvvələrimizin sıralarında xidmət edən hər bir gəncin qürur hissi keçirdiyini diqqətə çatdırıb. Qeyd edib ki, son illərdə qazanılan mühüm nailiyyətlər cəmiyyətdə vətənpərvərlik hisslərinin daha da yüksəlməsinə səbəb olub.

Çıxış edən polkovnik Elşad Əbilov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ordumuzun inkişafına daim qayğı göstərməsi, onun daha da qüdrətli olması üçün bütün tədbirlərin həyata keçirilməsi sayəsində güclü ordumuz daha da təkmilləşir. “Bu gün ordumuzun qarşısında çox mühüm vəzifələr durur. Əsas vəzifə torpaqlarımızın düşmən işğalından azad edilməsidir. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün hər cür imkan var. Ancaq möhtərəm Prezidentimiz sülh tərəfdarı olduğundan münaqişənin danışıqlar yolu ilə həllinə üstünlük verir. Əgər bu bir nəticə verməzsə, qüdrətli ordumuz bu işin öhdəsindən məharətlə gələcək.”

Zabit onu da bildirib ki, ordumuz güvənc yerimiz, qürur mənbəyimizdir. Biz belə bir qüdrətli ordu ilə Vətənimizi yağılardan qorumağa, işğal altında olan torpaqlarımızı azad etməyə həmişə hazırıq. "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev bəyan edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar baş tutmasa, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Ölkə Prezidentinin bu qətiyyəti ordumuzun şəxsi heyətinin qələbəyə inamını daha da yüksəldib. Son illərdə yeni hərbi hissələrin, hərbi şəhərciklərin istifadəyə verilməsi, Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən kütləvi vətənpərvərlik tədbirləri, Ali Baş Komandanın, Müdafiə nazirinin təmas xəttində, səngərlərdə zabit və əsgərlərlə söhbətləri şəxsi heyətin mənəvi-psixoloji hazırlığında mühüm rol oynayıb".

Çıxış edən valideynlər övladlarının hərbi xidməti uğurla başa vurması ilə fəxr etdiklərini bildiriblər. Digər çıxışçılar bu gün hər bir Azərbaycan vətəndaşının torpaqlarımızın azadlığı uğrunda mübarizəyə hazır olduğunu diqqətə çatdırıblar.

Daha sonra tədbir iştirakçıları ön xətdə xidmət edən “N” hərbi hissəsinin hərbi qulluqçuları ilə görüşüblər.

Sonda xidmət müddəti başa çatmış hərbi qulluqçular döyüş növbətçiliyini qəbul edən gənc əsgər yoldaşlarına rəmzi olaraq silah, zirehli jilet, dəbilqə və qiymətli hədiyyələr təqdim ediblər. Gənc əsgərlər Vətənə şərəflə xidmət edəcəklərinə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaqlarına söz veriblər.

Təntənəli mərasim xidmət müddətində fərqlənmiş hərbi qulluqçuların mükafatlandırılması, bayram naharı və konsert proqramı ilə başa çatıb.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində növbəti "itmiş" silah qalmaqalı yaşanır.

Düşmən ordusunun zabitləri son vaxtlar pul qazanmaq məqsədilə döyüş növbəsində xidmət edən əsgərlərin silahlarını oğurlamaqla məşğuldurlar. Sonradan isə silahı "itirdiyinə" görə əsgər cinayət məsuliyyətinə cəlb edilməklə hədələnir.

Hərbi qulluqçunun valideynləri övladlarını həbsdən qurtarmaq üçün tələb edilən məbləği ödədikdən sonra "itən" silah daha ciddi axtarılır və tapılaraq hərbi hissəyə qaytarılır. Əks halda, yəni, tələb edilən məbləğ ödənilmədikdə, cinayət işi açılaraq sənədlər prokurorluğa göndərilir.

Xəbəri verən şəxs bildirib ki, bir neçə ay ərzində silahı itdiyinə görə eyni hərbi hissədən ən azı 5 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Belə ki, Vitali Harutyunyan, Anuşavan Qalstyan, Hrac Baloyan, Artak Makaryan adlı hərbi qulluqçular silahlarını itirdiklərinə görə həbs ediliblər.

1974-cü il təvəllüdlü Gevork Gevorkyanın valideynləri isə övladlarının sözünə inanaraq, tələb edilən pulu ödəməkdən imtina edib və məsələ ilə bağlı hərbi prokurorluğa müraciət ediblər. Araşdırma nəticəsində əldə edilən istintaq məlumatları müstəntiqləri də təəccübləndirib. Məlum olub ki, tələb edilən pulu ödəməyən əsgərlərdən oğurlanan silahların böyük bir hissəsi quldur dəstələrinə və cinayətkar qruplaşmalara satılıb. Belə ki, soyğunçuluq məqsədilə Yerevanda törədilən bir neçə adamöldürmə cinayətlərində istifadə edilən odlu silahların bəzilərinin Dağlıq Qarabağın işğal altında yerləşən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrində qeydiyyatda olduğu məlum olub.

Fakt ictimaiyyətdən gizlədilsə də, Ermənistan İstintaq Komitəsi törədilən bütün cinayətlərdə istifadə edilən odlu silahların Ermənistan Müdafiə Nazirliyinə aid olub-olmaması ilə bağlı genişmiqyaslı araşdırmalara başlayıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrinin qeyri-döyüş şəraitində verdiyi itkilərin sayı artmaqda davam edir.

Düşmən ordusunun 7-ci dağatıcı alayının adı gizlədilən müqaviləli hərbi qulluqçusu təhlükəsizlik qaydalarının pozulması nəticəsində ayağın qapalı sınığı diaqnozu ilə Xankəndidəki hərbi hospitala təxliyə edilib.

Faktla bağlı xidməti araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# "İgidlər ölməz, Vətən bölünməz"



*Tərtər şəhər 6 saylı tam orta məktəbində "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin Qarabağ regionu üzrə nümayəndəliyinin rəhbəri Həsənağa Bayramovun təşkilatçılığı ilə Daşaltı əməliyyatı şəhidlərinin xatirəsinə həsr olunmuş "İgidlər ölməz, Vətən bölünməz" adlı tədbir keçirildi.*

Tədbirdə məktəbin şagird və müəllim kollektivi, şəhidlərin ailə üzvləri, müharibə veteranları, dövlət təşkilatları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin Qarabağ regionu üzrə nümayəndəliyinin rəhbəri Həsənağa Bayramov çıxış edərək qeyd etdi ki, Daşaltı əməliyyatında Tərtər şəhərində doğulub böyümüş Rafiq Nuriyev və Rövşən Səfərov da var idi. Bildirdi ki, Əfqanıstan müharibəsi veteranı olan bu oğullar 1991-ci ildən Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə könüllülər batalyonunda döyüşüblər.

Natiq respublikamızdakı bir çox məktəblərə şəhid adlarının verilməsinin gənclərimizin vətənpərvərlik tərbiyəsində böyük önəm daşıdığını vurğuladı. Məzunu olduğu 6 saylı məktəbə şəhid Rafiq Nuriyevin adının verilməsində zəhməti olan şəxslərə minnətdarlığını bildirdi.



Digər çıxış edənlər də Daşaltı əməliyyatından, şəhidlərdən mərd, cəsur, qorxubilməz, ürəkləri Vətən eşqiylə döyünən oğulların şərəfli ömür yolundan söz açdılar. Bu gün dünyanın tanınmış orduları ilə bir sırada dayanan qüdrətli ordumuzun aprel zəfərindən və hərbi qulluqçularımızın işğalda olan torpaqlarımızın azad edilməsi üçün hər an Ali Baş Komandanın verəcəyi əmrə hazır olmasından, Azərbaycan Xalq Cümhuriyyətinin və Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə keçirilən möhtəşəm paradlardan fəxrlə danışdılar. Belə tədbirlərin gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsinə müsbət təsir etdiyini vurğulayaraq sabahın etibarlı təminatı olan vətənpərvər, milli-mənəvi dəyərlərinə bağlı olan gənclərimizlə qürurlandılar.

Tədbirdə şagirdlərin ifasında Vətən və şəhidlər haqqında şeirlər, mahnılar səsləndirildi.

**Məlahət ABDULLAYEVA**

Deputat Vladimir Arıyev:

## Bütün münaqişələrin həllinə eyni yanaşma sərgilənməlidir

*Bütün münaqişələrin həllinə eyni yanaşma sərgilənməlidir. Bu, xüsusilə də Dağlıq Qarabağ münaqişəsinə aiddir. Avropada və ətraf regionlardakı münaqişələrin həlli daim Avropa Şurası Parlament Assambleyasının diqqətində saxlanılır. Amma Dağlıq Qarabağ münaqişəsinə laqeyd münasibət var.*

Bu fikirləri AŞPA-nın ukraynalı deputatı Vladimir Arıyev AZƏRTAC-a müsahibəsində söyləyib.

Deputat qeyd edib ki, Avropa Şurası bu münaqişəyə beynəlxalq hüquq və dövlətlərin ərazi bütövlüyü prizmasından yanaşmalı və onun həllinə çalışmalıdır. Amma hələlik bunun əksini görürük. Dağlıq Qarabağ münaqişəsinə dondurulmuş münaqişə kimi yanaşılır. Bunu tamamilə yanlış və təhlükəli hesab edirəm.

*Hərbi texnikalar, silahlar*

# "Osa" zenit-raket kompleksi



"Osa" zenit-raketi sovet istehsallı, yaxın məsafəli kompleksdir. "Osa" kompleksi xüsusi olaraq döyüş əməliyyatları və marş zamanı düşmənin hava hücumlarından tank və motoatıcı bölmələri qorumaq üçün nəzərdə tutulub. Bu kompleks istənilən hava şəraitində fəaliyyət göstərən, özüyeriyən və avtonom HHM vasitəsidir və düşmənin təyyarə və helikopterlərini, pilotsuz uçuş aparatlarını, həmçinin qanadlı raketlərini məhv etmək üçündür. Hətta bu kompleks düşmənin radioelektron qarşıdurması zamanı da öz tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Hazırda bu kompleks dünyanın bir çox ölkələrində istifadə edilir. Onun sovet "Osa-AKM" və "Osa-AK", Belarus "Osa-1T", Polşa SA-8 Stinq kimi modifikasiyaları da mövcuddur. Bir çox texniki dəyişikliklər edildikdən sonra 1970-ci ildə "Osa" kompleksinin sınağı həyata keçirilib və 1971-ci ildə silahlanmaya qəbul edilib. Zenit-raket kompleksi düşmənin radioelektron qarşıdurması zamanı 50 metrdən 5 min metrədək yüksəklikdə və 10 kilometr uzaqlıqda yerləşən hava hədəflərini məhv etməyə qadirdir. Həm də yüksək avtonom keçidliyə malikdir. Onun tərkibinə tuşlama, kəşfiyyat və raketin buraxılması üçün lazım olan vasitələrlə təchiz edilmiş 9A33B döyüş maşını, idarə olunan 9M33 zenit-raketi daxildir. Onun tam fəaliyyət göstərməsi üçün isə texniki xidmət, nəqliyyat-təchizat maşını, hərəkət edən nəzarət-sınaq stansiyası, qruplu (ZİP) maşın, yerüstü cihazlandırma komplekti daxildir. Bundan başqa kompleks hədəfləri aşkar və müşayiət etmək üçün stansiya, hesablama-qərarvermə cihazı, raketlərin nəzarətini həyata keçirmək üçün radiolokasiya sistemi və s. cihazlarla təchiz edilib. Kompleksin əsas silahlanması 9M33 zenit-raketidir. O "utka" klassik sistemi əsasında hazırlanıb və qatıyanacaqlı mühərrik və radiokomandalı tuşlama sistemi ilə təchiz edilib. Raketin döyüş hissəsinin çəkisi 15 kiloqram, ümumi çəkisi isə 128 kiloqramdır. Maksimal sürəti saniyədə 500 metr təşkil edir. Kompleks hədəflərə qarşı 3-5 saniyə interval ərzində iki raket buraxa bilir. "Osa" zenit-raket kompleksinin təchizat-nəqliyyat maşını 12 ədəd zenit raketini daşımağa qadirdir. Heyəti dörd nəfərdən ibarətdir. Döyüş maşınında 6 ədəd idarəolunan zenit raketi yerləşdirilib. Şose yolda maksimal irəliləmə sürəti saatda 70 kilometrdir, 4 dəqiqə ərzində döyüş vəziyyətinə gətirilir. Raket kanallarının sayı ikidir.

Hazırkı dövrə qədər "Osa" zenit-raket kompleksi dünyada baş verən bir çox hərbi münaqişələrdə iştirak edib. Hazırda da istismardadır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Rafael Ağayev "Paris Open" turnirində gümüş medal qazanıb



Fransa paytaxtında keçirilən "Paris Open" Karate1 Premyer Liqa turniri başa çatıb.

Azərbaycan milli komandası turnirdə bir medal qazanıb. Yığma komandamızın üzvü Rafael Ağayev (75 kq) bütün qarşılaşmaları uğurla başa vursa da, finalda yaponiyalı Ken Nişimuraya (Yaponiya) uduzaraq gümüş medalla kifayətlənməli olub.

## "Masters"in növbəti turunda Rauf Məmmədov qalib olub, Arkadi Naydiç heç-heçə edib



Cəbəllütariqdə təşkil olunan beynəlxalq şahmat festivalının "Masters" turnirində Azərbaycan şahmatçıları Arkadi Naydiç və Rauf Məmmədov beşinci turun oyunlarını keçiriblər.

A.Naydiç son turda isveçli Nils Qrandeliusla sülh bağlayıb, Rauf Məmmədov isə Rusiya idmançısı Valentina Qunina üzərində qələbə qazanıb. Beş turun nəticəsinə görə, Arkadi Naydiçin aktivində 4 xal var. Rauf Məmmədov isə 3,5 xal toplayıb.

## Azərbaycan şahmatçıları "Moskva Open" beynəlxalq turnirində mübarizə aparırlar



Rusiyanın paytaxtında kişilər arasında "Moskva Open" beynəlxalq turniri start götürüb.

19 ölkədən şahmatçıların iştirak etdiyi turnirin güclü "A" kateqoriyasında Azərbaycanın altı şahmatçısı - Aydın Süleymanlı, Fərid Mustafayev, Altay Eynullayev, Read Səmədov, Atilla Eynullayev və Elmar Atakişiyev də mübarizə aparır.

Yanvarın 28-də turnirin üçüncü turunun oyunları keçirilib. İki turun nəticəsinə görə, Aydın Süleymanlı, Fərid Mustafayev, Altay Eynullayev, Read Səmədovun hərəyə 1, Elmar Atakişiyevin isə 0,5 xalı var.

İsveçrə sistemi üzrə keçirilən turnirə fevralın 2-də yekun vurulacaq.

## Braziliya ciu-citsusu üzrə "Baku Open" turniri keçirilib



Hövsan Olimpiya İdman Kompleksində Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin təşkilatçılığı ilə "Baku Open" turniri keçirilib.

Yeniyetmələr, gənclər və böyüklər arasında təşkil olunan yarışda 16 klubdan 175 idmançı 25 çəki dərəcəsində birincilik uğrunda mübarizə aparıb.

Yarışın açılış mərasimində Gənclər və İdman Nazirliyinin nümayəndəsi Şiraslan Kərimov, "Legion" hərbi vətənpərvərlik klubunun sədri Abuzər Əbilov, Avrasiya Kombat Ciu-Citsu Federasiyasının prezidenti Aqil Acalov və Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin prezidenti Taleh Həsənov çıxış edərək ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, idmançılarımızın respublikamızı beynəlxalq arenada yüksək səviyyədə təmsil etdiklərini vurğulayıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Baş gizir Mahmudov Hüseyn Əliyusif oğlu və gizir Kərimov Ruzigar Rizvan oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 77
Nüsxə 3950